

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 86 (21.238)

*3 may 2015-ci il, bazar*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr edilmiş “Naxçıvan-2015” Beynəlxalq Şahmat Festivalının açılış mərasimi keçirilmişdir





Mayın 2-də Naxçıvan Dövlət Musiqili Dram Teatrında ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş “Naxçıvan-2015” Beynəlxalq Şahmat Festivalının açılışı olmuşdur.

Açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının ildönümü münasibətilə Naxçıvanda beynəlxalq şahmat festivalının keçirilməsinin ənənə halını aldığını bildirmiş, “Naxçıvan-2015” Beynəlxalq Şahmat Festivalının iştirakçılarını salamlayaraq demişdir: “Müdriklər gənc nəslin zehni inkişafında və formalaşmasında şahmatın imkanlarından faydalanmağın vacibliyini bildirmişlər. Bu, ondan irəli gəlir ki, şahmat bir tərəfdən gənclərin əqli inkişafına kömək edirsə, digər tərəfdən onların asudə vaxtlarının səmərəli təşkilinə xidmət edir. Azərbaycan xalqı qədimdən bu zəka oyununa böyük maraq göstərmişdir. Lakin ölkəmizdə idman növü kimi şahmatın kütləvi inkişafı ötən əsrin 70-ci illərindən başlanmışdır. Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə həmin dövrdə rayon mərkəzlərində və şəhərlərdə şahmat məktəbləri tikilib istifadəyə verilmiş, peşəkar şahmatçılar nəsli yetişdirilmiş və Azərbaycan şahmat məktəbinin əsası qoyulmuşdur. Dahi şəxsiyyət ölkəmizin müstəqillik dövründə də şahmatın inkişafına diqqət göstərmiş, onun himayə və qayğısı ilə bu sahədə möhkəm maddi-texniki baza yaradılmışdır.

*“Şahmatın inkişafı bu gün Azərbaycanda dövlət siyasətidir”*, – deyən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə şahmat infrastrukturunun müasirləşdirilməsi, beynəlxalq səviyyəli şahmat mütəxəssislərinin hazırlanması sahəsində ardıcıl tədbirlər görülür. Azərbaycanın Naxçıvan Muxtar Respublikasında da mükəmməl şahmat infrastrukturu yaradılmışdır. Bu gün Naxçıvan şəhərində Şahmat Mərkəzi, rayon mərkəzlərində isə şahmat məktəbləri fəaliyyət göstərir. Şahmat tədris müəssisələrinin hər biri üçün müasir binalar tikilib istifadəyə verilmişdir. Hazırda muxtar respublikada 3 mindən artıq məktəbli peşəkar formada şahmatla məşğul olur. Bundan başqa, ümumtəhsil məktəblərində şahmat fənninin dərs proqramına daxil edilməsi gənclərin bu idman növünə marağını xeyli artırmışdır. Artıq Naxçıvan şahmatçıları müxtəlif beynəlxalq yarışlarda, dünya və Avropa çempionatlarında uğurla çıxış edirlər”.




“Naxçıvan-2015” Beynəlxalq Şahmat Festivalının təşkilatçılarına təşəkkürünü bildirən Ali Məclisin Sədri iştirakçılara uğurlar arzulamış və festivalı açıq elan etmişdir.

Azərbaycan Respublikası Gənclər və İdman nazirinin müavini İsmayıl İsmayılov çıxış edərək demişdir ki, ölkə Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafı sahəsində kompleks tədbirlər həyata keçirilir, ölkəmizin idman nüfuzu artır. Bu gün Azərbaycanda idmanın bütün növlərinin, o cümlədən şahmatın inkişafı sahəsində ardıcıl tədbirlər görülür. Qəbul edilən dövlət proqramı şahmatın kütləvi hal almasına, istedadlı şahmatçıların yetişməsinə səbəb olmuşdur. İsmayıl İsmayılov Naxçıvan Muxtar Respublikasında da idmanın bütün növlərinin, o cümlədən şahmatın inkişafı sahəsində həyata keçirilən tədbirlərdən bəhs etmiş, festival iştirakçılarına uğurlar arzulamışdır.

Tədbirdə çıxış edən beynəlxalq dərəcəli hakim, şahmat festivalının baş hakimi Faiq Həsənov demişdir ki, ölkəmizdə, o cümlədən Naxçıvanda şahmatın inkişafı və kütləviliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür. Muxtar respublikada istər şahmat infrastrukturunun müasirləşdirilməsi, istərsə də şahmatçıların fəaliyyətinin dəstəklənməsi peşəkar şahmatçılar nəslinin yetişməsinə səbəb olmuşdur. Artıq naxçıvanlı şahmatçılar ölkəmizdə və dünyada keçirilən şahmat birinciliklərində uğurla çıxış edirlər. Faiq Həsənov muxtar respublikada şahmatın inkişafı sahəsində həyata keçirilən tədbirlərə görə minnətdarlıq etmişdir.

Sonra festivalın püşkü atılmışdır.

“Naxçıvan-2015” Beynəlxalq Şahmat Festivalında 13 ölkədən 350-dən artıq şahmatçı iştirak edir. Festival üç yarımqrupda keçiriləcəkdir. Şəxsi əmsallarına görə “A” qrupunda 67, “B” qrupunda 116 və “C” qrupunda 176 şahmatçı 9 turda mübarizə aparacaqdır. Festivalda dünya və Avropa çempionu olmuş şahmatçılar, beynəlxalq qrossmeysterlər, beynəlxalq şahmat və FİDE ustaları iştirak edir. Ölkəmizi festivalda 303 şahmatçı təmsil edir ki, onlardan 80-i Naxçıvan Muxtar Respublikasından olan şahmatçılardır.

Tədbirin bədii hissəsində Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestri konsert proqramı ilə çıxış etmişdir.

Sonra Naxçıvan şəhərindəki Şahmat Mərkəzində “Naxçıvan-2015” Beynəlxalq Şahmat Festivalı start götürmüşdür.

Naxçıvanda ulu öndərin anadan olmasının ildönümünə həsr olunmuş beynəlxalq şahmat festivallarının keçirilməsi xarici ölkələrin dövlət rəsmiləri və beynəlxalq idman təşkilatlarının rəhbərləri tərəfindən maraqla qarşılanır.

Beynəlxalq Şahmat Federasiyasının prezidenti Kirsan İlümjinov və Rusiya Federasiyası Dövlət Dumasının deputatı Dmitri Savelyev “Naxçıvan-2015” Beynəlxalq Şahmat Festivalının keçirilməsi ilə əlaqədar təbrik etmiş, bu beynəlxalq yarışın şahmatın inkişafına mühüm töhfələr verəcəyinə əminliklərini bildirmişlər.

* * *



Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov “Naxçıvan-2015” Beynəlxalq Şahmat Festivalının iştirakçıları ilə görüşmüşdür.

Ali Məclisin Sədri demişdir ki, ilk dəfə 2003-cü ildə muxtar respublikada 20 yaşadək gənclər arasında şahmat üzrə dünya çempionatı keçirilmişdir. Bundan sonra muxtar respublikada şahmatın inkişafı və beynəlxalq yarışların təşkili sahəsində ardıcıl tədbirlər görülmüşdür. 5 ildir ki, Naxçıvanda ulu öndərin anadan olmasının ildönümü münasibətilə beynəlxalq şahmat festivalı keçirilir. Bu festival dünya şahmatçıları və şahmatsevərləri tərəfindən böyük maraqla qarşılanır.

Naxçıvanda şahmatın inkişafı sahəsində görülən işlərdən danışan Ali Məclisin Sədri qeyd etmişdir ki, muxtar respublikada şahmatın inkişafına hərtərəfli dövlət qayğısı göstərilir. İstər şahmat məktəblərində, istərsə də ümumtəhsil məktəblərində şahmatın tədrisinə xüsusi diqqət yetirilir. Festivaldan bir gün öncə Kəngərli rayonunda Uşaq-gənclər şahmat məktəbi üçün yeni bina istifadəyə verilmişdir. Şahmatın inkişafına göstərilən qayğının nəticəsidir ki, bu gün muxtar respublika şahmatçıları arasında 1 beynəlxalq qrossmeyster, 1 beynəlxalq hakim və 1 FİDE ustası vardır.

Ali Məclisin Sədri beynəlxalq səviyyəli şahmatçıların Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş şahmat festivalında iştirak etməsini dahi rəhbərin şəxsiyyətinə hörmət və ehtiramın ifadəsi kimi dəyərləndirmiş, onların hər birinə qələbə arzulamışdır.

Beynəlxalq dərəcəli hakim, şahmat festivalının baş hakimi Faiq Həsənov və beynəlxalq qrossmeyster Zeynəb Məmmədyarova səmimi qəbula görə şahmat festivalının iştirakçıları adından minnətdarlıq etmiş, muxtar respublikada şahmatın inkişafı sahəsində görülən işlərin nümunə gücündə olduğunu bildirmişlər.

Sonda Ali Məclisin Sədri şahmatçılarla xatirə şəkli çəkdirmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

***Azərbaycan səhiyyəsi XX əsrin ikinci yarısı və XXI əsrin əvvəllərində – 35 ilə yaxın bir dövrdə bilavasitə xalqımızın ümummilli lideri Heydər Əliyevin himayəsində olub, onun rəhbərliyi altında inkişaf edərək indiki yüksək səviyyəyə çatıb. Ölkəmizin qüdrəti həyatımızın bütün sahələri ilə yanaşı, həm də milli səhiyyə sisteminin inkişaf səviyyəsi ilə ölçülüb. Azərbaycan səhiyyəsinin inkişafında misilsiz xidmətlər göstərən və xalqın sağlamlıq məsələlərinə qayğısını əsirgəməyən ümummilli lider Heydər Əliyev insanların sağlamlığını dövlətin və cəmiyyətin sağlamlığı hesab edirdi. 1969-1982-ci illərdə respublikamıza rəhbərlik edərkən, eləcə də 1982-1987-ci illərdə SSRİ-nin rəhbərlərindən biri olarkən ulu öndər Heydər Əliyev səhiyyəmizin misilsiz yüksəlişini, əsrlərə bərabər tərəqqisini təmin edib.***

*Azərbaycanın özü qədər əbədi*

# Ulu öndər Heydər Əliyev və Azərbaycan səhiyyəsi

## *Xalqımızın sağlamlığı, səhiyyəmizin inkişafı naminə*

Həyatını ölkəmizin yüksəlişinə və insanların xoşbəxtliyinə həsr edən ulu öndərimiz xalqın sağlamlıq məsələlərinə daim taleyüklü məsələ kimi yanaşıb, səhiyyəni cəmiyyət və dövlət həyatında ən mühüm sahə kimi qiymətləndirərək deyib: ***"Səhiyyə bizim üçün, hər bir cəmiyyət və dövlət üçün çox lazımlı, həyatın bütün sahələrini əhatə edən sahədir. Onun üçün zəruri tədbirlər görülüb və gələcəkdə də görüləcəkdir".***

Əbədiyaşar liderimiz səhiyyə sisteminin inkişafı ilə bağlı tədbirlərin həyata keçirilməsinə mövcud tibbi obyektlərin abadlaşdırılması, yeni səhiyyə müəssisələrinin yaradılması, əhalinin kütləvi dispanser qeydiyyatına alınması və sahə həkimlərinin işinin fəallaşdırılması məsələlərindən başlayıb. Dahi rəhbər Heydər Əliyev ölkəmizdə sağlamlıq zonaları və istirahət evlərinin yaradılmasına, abadlaşdırma işlərinin aparılmasına, mövcud səhiyyə ocaqlarının profilinin genişləndirilməsinə ciddi əhəmiyyət verirdi. Həmin dövrdə rayonlarda, xüsusən ucqar dağlıq və dağətəyi bölgələrdə səhiyyənin inkişafına xüsusi diqqət yetirilirdi. Ötən əsrin 70-ci illərinin əvvəllərində həmin rayonlarda ixtisaslı həkimlərin, xüsusən kardioloq, onkoloq, ginekoloq, ftiziatr, nevropatoloq, sanitar həkim və epidemioloqların, orta ixtisas təhsilli tibb işçilərinin və şəfqət bacılarının çatışmazlığı kəskin hiss olunurdu. Bu problemin həlli üçün, ilk növbədə, Tibb İnstitutuna tələbə qəbulunun sayı artırıldı, ucqar yaşayış məntəqələrindən gələn abituriyentlər üçün güzəştlər tətbiq edildi. Bu, bilavasitə dahi şəxsiyyətin öz təşəbbüsü idi. Məhz bu təşəbbüs sayəsində bölgələrin səhiyyə müəssisələrində kadr çatışmazlığı aradan qaldırıldı.

Görkəmli dövlət xadimi Heydər Əliyev ölkəmizə birinci rəhbərliyi dövründə tibb üzrə xarici mütəxəssislərin diqqətini Azərbaycana cəlb etməyə, onlarla yerli mütəxəssislər arasında əlaqə yaratmağa çalışırdı. Keçən əsrin 70-ci illərinin əvvəllərindən etibarən tibb üzrə beynəlxalq qurultay, simpozium, konqres və konfransların keçirilməsini təşkil edən ulu öndər ölkəmizin səhiyyə işçilərinin, tibb alimlərinin beynəlxalq arenaya çıxmalarına şərait yaratdı. Həmin dövrdən ulu öndərin təşəbbüsü ilə hər il yüzlərlə gənc keçmiş Sovetlər İttifaqının ən mötəbər ali məktəblərində müxtəlif peşələr və ixtisaslar üzrə təhsil almağa göndərildi. Bu, gələcəyin kadr hazırlığının təmininə istiqamətlənmiş uzaqgörən siyasətin həyata keçirilməsi demək idi. İndi Azərbaycanın milli tibbi kadrları nəinki ölkəmizdə, hətta dünyanın bir sıra inkişaf etmiş dövlətlərinin məşhur səhiyyə müəssisələrində uğurla fəaliyyət göstərirlər.

1974-cü ilin oktyabr ayında Naxçıvan MSSR-in 50 illik yubiley tədbirlərində iştirak etmək üçün Naxçıvana gələn dahi rəhbər Heydər Əliyev Naxçıvan Tibb Məktəbində də olub, məktəbdə tədrisin səviyyəsi və dərslərin keyfiyyəti, eyni zamanda əyani vasitələrlə təchizat və mövcud problemlərlə maraqlanıb, Naxçıvan Tibb Məktəbinin Naxçıvanda, eləcə də Azərbaycanda orta ixtisaslı tibbi kadrların hazırlanmasında müstəsna rolunu qeyd edib.

Görkəmli dövlət xadimi Heydər Əliyevin 1983-cü ildə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin edilməsi onun Azərbaycan səhiyyəsinə olan nəzarətini, diqqətini nəinki azaldıb, əksinə, daha da artırıb. Ulu öndər sonralar bu dövrü belə xatırlayırdı: ***"Mən Azərbaycana rəhbərlik etdiyim zaman, sonra SSRİ-nin rəhbərliyində olduğum illərdə daim səhiyyə ilə, tibb elmi ilə yaxın olmuşam, ona qayğı göstərmişəm və hesab edirəm ki, çox işlər görmüşəm. Mən o vaxt Sovetlər İttifaqının Moskvada yerləşən ən böyük, ən mötəbər tibb ocaqları, müəssisələri ilə yaxından tanış idim, onların yaranmasında, inkişaf etməsində xidmətlər göstərirdim. Mənim o vaxt həm onkoloji, həm kardioloji, həm ürək cərrahiyyəsi, həm oftalmoloji mərkəzlərin, başqalarının yaranmasında, inkişaf etməsində çox səylərim olmuşdur. Mən bu gün böyük məmnuniyyətlə xatırlayıram ki, o vaxt SSRİ dövləti tərkibində Azərbaycanın səhyyəsinə marağı, qayğını daha da artırırdım. Moskvada yerləşən o böyük tibb elmi mərkəzlərinin diqqətini Azərbaycana cəlb edirdim və Azərbaycana yardım etməyə çalışırdım".***

Ulu öndərin bu diqqət və qayğısından muxtar respublikamıza da pay düşürdü. Əhalinin sağlamlığının qorunması və yaxşılaşdırılması üçün hələ ötən əsrin 70-80-ci illərində Naxçıvan şəhərində 500 çarpayılıq respublika xəstəxanası, doğum evi kompleksi, uşaq xəstəxanası, dəri-zöhrəvi, vərəm, onkoloji dispanserləri, Səhiyyə Nazirliyinin inzibati binası, rayon mərkəzlərində və kəndlərdə çoxlu xəstəxana binaları, feldşer-mama məntəqələri tikilib istifadəyə verilib.

1985-ci ildə muxtar respublikada 20 şəhər xəstəxanası və 1720 çarpayılıq dispanser, 680 çarpayılıq kənd sahə xəstəxanası, doğum evi, şəhər poliklinikası, 13 kənd həkim ambulatoriyası, 141 feldşer-mama məntəqəsi, 30 çarpayılıq uşaq evi, 50 çarpayılıq uşaq istirahət mərkəzi, 7 sanitar-epidemioloji mərkəz, qanköçürmə mərkəzi, 2 təcili tibbi yardım mərkəzi, məhkəmə-tibbi ekspertizası və sanitar maarif evi fəaliyyət göstərirdi. Bu tibb təşkilatlarında 637 həkim və 1959 orta tibb işçisi çalışırdı. Əhalinin hər 10 min nəfərinə 25 həkim, 78,5 orta tibb işçisi düşürdü. Həkimlərin peşəkarlıqlarını artırmaq məqsədilə onlar mütəmadi olaraq Bakı, Moskva, Leninqrad (indiki Sankt-Peterburq) Kiyev, Xarkov, Kazan, Zaporojye, Minsk şəhərlərinin müxtəlif xəstəxana və klinikalarına ixtisasartırma kurslarına göndərilirdilər. Keçirilən tədbirlər nəticəsində bir sıra yoluxucu xəstəliklər – malyariya, traxoma, difteriya və başqa xəstəliklər çox aşağı səviyyəyə düşmüşdü.

Muxtar respublikada tibb işçilərinin əməyi yüksək qiymətləndirilirdi. Naxçıvan MSSR-in 60 illik yubileyi münasibətilə Mehdi Bağırov "SSRİ Xalq həkimi", 36 nəfər "Əməkdar həkim" fəxri adı, 125 tibb işçisi "Səhiyyə əlaçısı" nişanları ilə təltif olunub, 196 nəfər tibb işçisi isə müxtəlif mükafatlara layiq görülüb.

1987-1993-cü illərdə ölkəmizi Heydər Əliyev yolundan döndərməyə uğursuz cəhdlər göstərildi. Sovet dövründə formalaşan səhiyyə tənəzzül dövrünü yaşadı. 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərən ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi tədbirlər səhiyyə sistemində də öz bəhrələrini verirdi. Həmin illər Azərbaycan səhiyyəsində qazanılmış nəticələrdən praktikada istifadə edilməsinə yönəlmiş fəal axtarışlarla əlamətdar idi. "Hər şey praktik səhiyyə üçün" ideyası Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin fəaliyyət xəttinin əsasını təşkil edirdi.

Ulu öndərin çoxşaxəli fəaliyyətində səhiyyənin xüsusi yer tutması əhalinin sağlamlığının qorunması istiqamətində hələ ötən əsrin 70-ci illərində başlanan islahatların məntiqi davamı idi. Yeni tarixi şəraitdə səhiyyə işçiləri təkcə səhiyyəni xilas etmək deyil, onun səmərəsini yüksəltmək, xalqın səhiyyəyə etimadını bərpa etmək vəzifələrinin öhdəsindən gəlməli idilər. Obrazlı şəkildə desək, onlar vuruşa-vuruşa irəliləməli idilər, çünki vaxt gözləmirdi; bir sıra problemləri təxirə salmadan nəzəri cəhətdən işləyib hazırlamaq və dərhal praktik səhiyyə müəssisələrinin işində tətbiq etmək lazım idi. Səhiyyə işçiləri olduqca çətin bir dövrdə bu vəzifələri ardıcıllıqla yerinə yetirməyə başladılar. Çünki muxtar respublikada dövlətin sükanı müdrik rəhbər Heydər Əliyevin əlində idi.

Həmin dövrdə muxtar respublika ərazisinə ermənilərin hücumu zamanı yaralananlara tibbi xidmət göstərilməsi Səhiyyə Nazirliyi tərəfindən həyata keçirilirdi. Yaralılara tibbi xidmət göstərilməsini təşkil etmək üçün Sədərək Rayon Mərkəzi Xəstəxanası kənddən kənara – təbii mühafizə olunan yerə köçürülərək yaralıların qəbulu məntəqəsinə çevrildi. Yaralılara həm rayonun həkimləri, həm də Naxçıvan şəhərindən mütəmadi olaraq göndərilən həkim briqadaları tərəfindən tibbi xidmət göstərilirdi və bu müddətdə əks-epidemik tədbirlərə ciddi nəzarət edilirdi. Aparılan tədbirlər nəticəsində müvəqqəti olaraq çadırlarda və vaqonlarda yaşayanlar arasında yoluxucu xəstəliklər baş vermədi. Bütövlükdə, o dövrdə sərhəd bölgələrində fəaliyyət göstərən səhiyyə müəssisələri fövqəladə vəziyyət rejimində işləyir, əks-epidemik tədbirlərə ciddi nəzarət edirdilər.

Ulu öndərin Ərzurum xəstəxanalarında müalicə olunan yaralılara baş çəkməsi əsgərlərimizin ruh yüksəkliyinin, qələbə əzminin daha da artmasında mühüm əhəmiyyət kəsb edirdi. O tarixi günlərdə səhiyyə işçilərimiz də müsəlləh əsgər kimi daim qaynar nöqtələrdə, səngərlərdə olub, yaralılara tibbi xidmət göstəriblər. Bu sətirləri yazarkən o vaxt Şərur şəhərində yaşayan tibb bacısı Ləzifə Qeybullayevanın çiynində tibbi yardım çantası ilə daim döyüş meydanında, səngərlərdə olmasını xatırlayıram. Nigar, Həcər qeyrətli bu qadın neçə-neçə yaralını atəş nöqtələrindən çıxarıb, ilk tibbi yardım göstərib. O zaman səngərdə Ləzifədən Naxçıvan televiziyası üçün aldığım müsahibə öz emosionallığı ilə böyük əks-səda doğurmuşdu, döyüşçülərin qələbə əzminin artmasında mühüm rol oynamışdı. Sonralar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun yüksək qayğısı sayəsində Ləzifə Qeybullayeva minik avtomobili ilə təmin olundu, müalicəyə göndərildi, Naxçıvan şəhərində yeni mənzilinə köçdü.

1993-cü ildə böyük dövlət xadimi Heydər Əliyevin ikinci dəfə ali hakimiyyətə qayıdışından sonra bütün sahələr kimi, səhiyyə də yeni inkişaf mərhələsinə qədəm qoydu, ilk növbədə, bu sahənin qanunvericilik bazası təkmilləşdirildi, əhalinin sağlamlığının qorunması işini yaxşılaşdırmaq məqsədilə geniş islahatlar proqramı hazırlandı. Tibb müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni səhiyyə ocaqlarının yaradılması əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılmasına imkan verdi. Ulu öndərimizin rəhbərliyi ilə bu sahədə 15-dən çox qanunun qəbul edilməsi, ümummilli liderimizin 2001-ci il 4 iyun tarixli Sərəncamı ilə hər il iyun ayının 17-nin ölkəmizdə tibb işçilərinin peşə bayramı kimi qeyd olunması, səhiyyə işçilərinin əməkhaqlarının dəfələrlə artırılması həm bu sahənin müasir tələblər səviyyəsində yeniləşdirilməsinə, həm də insanların sağlamlıqlarının etibarlı şəkildə qorunmasına xidmət edirdi. Ulu öndər səhiyyədə islahatlar aparılmasını vacib hesab edərək deyirdi: ***"Biz islahatları bütün sahələrdə keçirirk və səhiyyə sahəsində də islahatlar keçirilməsi çox zəruridir. Bu barədə mənim fərmanlarım var, lazımi göstərişlərim var, qərarlar vardır. Məmnuniyyətlə deyə bilərəm ki, son vaxtlar Azərbaycan səhiyyəsində islahatlar həyata keçirilir və onlar da öz nəticələrini verir".***

Xalqımızın böyük oğlu Heydər Əliyevin ölkəmizdə siyasi-iqtisadi vəziyyəti yaxşılaşdırmaq naminə əvəzsiz xidmətləri muxtar respublikamızın da quruculuq salnaməsinə qızıl hərflərlə həkk olundu. Bütövlükdə, 1969-1999-cu illərdə Naxçıvan Muxtar Respublikasında 1156 yerlik xəstəxana, növbədə 1045 nəfər qəbul edə biləcək poliklinika və ambulatoriyalar tikilib ki, bu da ulu öndərimiz tərəfindən əsası qoyulmuş genişmiqyaslı quruculuq və inkişaf konsepsiyasının əyani göstəricisidir.

Bu gün tibbi xidmətin keyfiyyətcə müasir standartlar səviyyəsinə yüksəldilməsi, vətəndaşların sağlamlığının etibarlı təminatı məsələləri dövlətin üzərinə götürdüyü sosial öhdəliklər sırasında mühüm yer tutur. Verdiyi bütün vədlərə sadiqlik göstərən, hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu əməli işi ilə təsdiqləyən dövlət başçısı cənab İlham Əliyev ulu öndərin xalqımız tərəfindən daim bəyənilən və dəstəklənən strateji siyasət kursunu səhiyyə sistemində də layiqincə davam etdirir.

Muxtariyyət tarixində xüsusi mərhələ olan 1995-2014-cü illər Naxçıvan səhiyyəsində intensiv inkişaf dövrü ilə xarakterizə olunur. Səhiyyənin maddi-texniki bazasının gücləndirilməsi məqsədilə muxtar respublikada son 20 ildə 220-dən çox səhiyyə obyektinin tikilərək, yaxud yenidən qurularaq istifadəyə verilməsi ölkəmizin iqtisadi potensialının sosial siyasətin icrasına, əhalinin sağlamlığına yönəldiyinin parlaq göstəricisidir.

Muxtar respublikamıza səfərləri zamanı ölkə başçısı cənab İlham Əliyev burada yeni tibb ocaqlarının tikintisini yüksək dəyərləndirərək deyib: ***"Yeni xəstəxanaların açılışı artıq Naxçıvanda gözəl ənənəyə çevrilibdir... Onların hamısı yüksək keyfiyyətlə tikilib, yüksək standartlara cavab verir. Çox sevindirici haldır ki, muxtar respublikanın bütün rayonlarında gözəl, yeni, müasir tibb ocaqları tikilir. Burada quraşdırılan avadanlıq ən yüksək səviyyəyə layiqdir. Həm həkimlər üçün, həm də xəstələrin müalicəsi üçün bütün şərait var. Bax budur, bugünkü Azərbaycanın inkişafı".***

Səhiyyə sahəsində görülən işlər ancaq quruculuq tədbirləri ilə yekunlaşmır. Ali Məclis Sədrinin 2003-cü il 27 may tarixli Sərəncamı ilə ölkədə ilk olaraq Naxçıvan Muxtar Respublikasının dövlət səhiyyə müəssisələrində (təsərrüfathesablı səhiyyə müəssisələrindən başqa) bütün növ pullu xidmətlər ləğv edilib. Səhiyyə sistemində tibb ocaqlarının müasir avadanlıqlar, müayinə və müalicə aparatları ilə təchiz edilməsi, lazımi şəraitin yaradılması hər bir vətəndaşa öz sağlamlığını qorumağa imkan yaradır.

Tibbi xidmətin əhatə dairəsinin genişləndirilməsində və keyfiyyətinin artırılmasında ölkə başçısının səhiyyənin ayrı-ayrı sahələri üzrə tapşırıqlarının, dövlət proqramlarının xüsusi rolu vardır. Hazırda dövlət proqramlarının icrası Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin əsas fəaliyyət istiqamətlərindən biridir.

Ölkəmizin paytaxtında fəaliyyət göstərən yüksəkixtisaslı həkim briqadalarının dəvət olunaraq muxtar respublikamıza gətirilməsi və aztəminatlı ailələrdən olan xəstələrin başqa ünvanlara üz tutmadan müayinəsinin və cərrahiyyə əməliyyatlarının təşkili artıq ənənə halını alıb. Sosial layihələr çərçivəsində 2015-ci ilin ilk rübü ərzində yüksəkixtisaslı həkim heyəti tərəfindən, ümumilikdə, 109 cərrahi əməliyyat, o cümlədən 32 xəstədə açıq ürək, 18 xəstədə göz əməliyyatları aparılıb.

***Bu gün ulu öndər Heydər Əliyevin siyasi kursunun ölkəmizdə, eləcə də muxtar respublikamızda sədaqətlə davam etdirilməsi digər sahələr kimi, səhiyyə sistemində də uğurlara yeni vüsət verib. Həyata keçirilən genişmiqyaslı islahatlar əhalinin sağlamlığının qorunmasına, xalqımızın həyat səviyyəsinin yaxşılaşdırılmasına, orta ömür müddətinin uzanmasına xidmət edir. Tam əminliklə demək olar ki, əbədiyaşar liderimiz Heydər Əliyevin uzun illərə hesablanmış strategiyasının uğurla tətbiqi nəticəsində səhiyyə sistemini qarşıda daha böyük tərəqqi, nailiyyətlər gözləyir.***

**Hüseyn ƏSGƏROV**
*Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti*

*Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə Naxçıvan Dövlət Universitetində keçirilən silsilə tədbirlər davam etdirilir. Bu tədbirlərin davamı kimi ali təhsil ocağında "Ümummilli lider Heydər Əliyev və Azərbaycan təhsili" mövzusunda konfrans keçirilib.*

## Milli təhsilimizin himayədarı



Konfransı giriş sözü ilə açan universitetin tərbiyə işləri üzrə prorektoru, professor Məmməd Rzayev Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin nəzəri irsində və möhtəşəm fəaliyyətində təhsil məsələlərinin xüsusi yer tutduğunu bildirib. Qeyd olunub ki, ulu öndərimiz ölkənin və xalqın taleyində, hərtərəfli tərəqqisində, uğurlar qazanılmasında təhsilin xüsusi rolunu, əhəmiyyətini həmişə yüksək qiymətləndirib. Bu gün müstəqil Azərbaycanda, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında ulu öndər Heydər Əliyevin siyasi kursu bütün sahələrdə uğurla davam etdirilir. Təhsil sahəsində həyata keçirilən böyük tədbirlər də bu siyasətin tərkib hissəsidir.

Konfransda "Ümummilli lider Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafında rolu" mövzusunda məruzə ilə çıxış edən Fənlərin tədrisi metodikası və texnologiya müəllimliyi kafedrasının müdiri, professor Elbəyi Maqsudov vurğulayıb ki, Azərbaycan müstəqillik qazandıqdan sonra təhsilimizin milli əsaslar üzərində yenidən qurulması, əsl inkişafa qovuşması məhz Heydər Əliyev dühası sayəsində gerçəkləşib. Qəbul olunmuş qərarlar, imzalanmış fərman və sərəncamlar müstəqil Azərbaycanda təhsil sektorunun hərtərəfli yüksəlişini, tərəqqisini, məzmunca yeniləşməsini, maddi-texniki cəhətdən möhkəmlənməsini, dünya standartlarına uyğunlaşdırılmasını şərtləndirib. Qeyd olunub ki, yeni təhsil müəssisələrinin yaradılması, məktəblərin müasir tədris vasitələri ilə təmin edilmələri, şagirdlərin dövlət hesabına pulsuz dərsliklərlə təmin olunmaları, müəllim əməyinin yüksək qiymətləndirilməsi, onların maddi vəziyyətinin əsaslı şəkildə yaxşılaşdırılması, istedadlı gənclərə böyük dövlət qayğısının göstərilməsi, onların xaricdə təhsilə göndərilmələri Azərbaycanda təhsil siyasətinin geniş üfüqlərindən soraq verir. Professor Elbəyi Maqsudov bildirib ki, Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar Respublikasında təhsilin yüksəlişi, uğurları "Təhsil millətin gələcəyidir", – deyən ulu öndər Heydər Əliyevin əbədiyaşar təliminin, möhtəşəm siyasi kursunun təntənəsidir.

Sonra həmin kafedranın dosenti, filologiya üzrə fəlsəfə doktoru Mehriban Quliyevanın "Ümummilli lider Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti" mövzusunda məruzəsi dinlənilib. Məruzəçi ümummilli lider Heydər Əliyevin bu ali təhsil ocağının müəddəratında, təşəkkülündə və inkişafında mühüm rol oynadığını, dəfələrlə universitet kollektivi ilə görüşərək tarixi çıxışlar etdiyini, Naxçıvan Dövlət Universitetini Azərbaycanın ən dəyərli, qabaqcıl ali məktəblərindən, ali təhsil ocaqlarından biri kimi yüksək qiymətləndirdiyini bildirib.

**Mina QASIMOVA**

## Ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ilə əlaqədar konsertlər keçirilib



Mayın 2-də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ilə əlaqədar Babək Rayon Mədəniyyət Evində konsert olub. Konsert proqramı başlamazdan əvvəl rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Ceyhun Fərəcov çıxış edərək bildirib ki, görkəmli dövlət xadimi Heydər Əliyev ötən əsrin 90-cı illərinin əvvəllərində parçalanmaqda olan ölkəmizi, məhv olmaq təhlükəsi ilə üz-üzə qalan dövlətçiliyimizi xilas edib, bugünkü müstəqil, suveren Azərbaycan Respublikasını bizə əmanət qoyub. Bu gün ulu öndərin əsasını qoyduğu siyasi kursun ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan dünyanın ən öncül dövlətləri sırasında yerini alıb.

Cəlil Məmmədquluzadənin Nehrəm kəndindəki Xatirə Muzeyinin direktoru Akif Hacıyev "Ümummilli lider Heydər Əliyev və milli dəyərlərimiz", Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Fatma Bağırova "Mədəniyyətimizin hamisi" mövzularında çıxış ediblər. Çıxışlarda ulu öndər Heydər Əliyevin mədəniyyətimizin inkişafındakı misilsiz xidmətlərindən bəhs edilib.

Sonra Babək Rayon Uşaq musiqi məktəbi şagirdlərinin ifasında konsert proqramı təqdim olunub. Şagirdlərin ifasında "Segah təsnifi", "Rast" muğamı və xalq mahnıları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Həmin gün Şərur Şəhər Uşaq incəsənət məktəbinin şagirdləri Şərur rayonundakı Cəlilkənddə, Şərur Rayon Ələkli Kənd Uşaq musiqi məktəbinin şagirdləri rayonun Vərməziyar kəndində, Culfa Şəhər Uşaq musiqi məktəbinin musiqi kollektivi Cufa rayonunun Ərəzin kəndində, Sədərək Rayon Uşaq musiqi məktəbinin şagirdləri Sədərək kəndində, Ordubad Şəhər Uşaq musiqi məktəbinin musiqi kollektivi isə Ordubad şəhərində konsert proqramı ilə çıxış ediblər.

**Xəbərlər şöbəsi**

*3 may Beynəlxalq Mətbuat və Söz Azadlığı Günüdür*

## Mətbuat və söz azadlığı demokratik prinsiplərin əsas göstəricisidir

***1993-cü il dekabrın 20-də Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin qərarı ilə may ayının 3-ü Beynəlxalq Mətbuat və Söz Azadlığı Günü elan olunmuşdur.***




Demokratiyanın əsas göstəricilərindən sayılan söz və məlumat azadlığı dövlətin və cəmiyyətin inkişafında müstəsna rol oynayır. Fikir, söz və məlumat azadlığı sərbəst düşüncənin ifadə olunması üçün hüquqların təmin olunmasına xidmət edir. Kütləvi informasiya vasitələri – qəzetlər, jurnallar, teleradiolar, informasiya agentlikləri və informasiyanın müntəzəm formada yayıldığı digər vasitələr cəmiyyətin inkişafına ciddi təsir göstərən, onun vəziyyətini və mahiyyətini müəyyənləşdirən siyasi sistemin tərkib hissəsidir. Kütləvi informasiya vasitələri cəmiyyətdə ictimai fikri, dövlətə inamı, demokratik dəyərləri və sosial fəallığı formalaşdırmaqla yanaşı, həm də onları istiqamətləndirir. Azərbaycanda kütləvi informasiya vasitələrinin azad fəaliyyəti və inkişafı üçün zəruri tədbirlər görülüb. Yaranmasının 140 illiyini qeyd etdiyimiz Azərbaycan milli mətbuatı ötən müddət ərzində mühüm inkişaf yolu keçmiş, söz və mətbuat azadlığı təmin olunmuşdur.

Ümumbəşəri dəyərləri, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf modeli kimi qəbul edən Azərbaycan Respublikası insan hüquqları, söz və mətbuat azadlığının təmin edilməsi ilə bağlı mövcud olan əksər beynəlxalq konvensiya və sazişlərə qoşulmuşdur. Kütləvi informasiya vasitələrində fikir demək, hadisələrə münasibət bildirmək üçün qeyri-məhdud imkanlar vardır. Azərbaycan Respublikasının Konstitusiyasında informasiya azadlığı və onun təmin olunması dövlətimizin ali məqsədlərindən biri kimi təsbit edilmişdir.

Azərbaycanda söz azadlığının bərqərar olunması və onun əsas daşıyıcısı olan müstəqil mətbuatın yaradılması ulu öndərimiz Heydər Əliyevin adı, siyasi və dövlətçilik fəaliyyəti ilə sıx bağlıdır. Ümummilli liderimiz ölkəmizdə söz azadlığının təmin olunmasına, kütləvi informasiya vasitələrinin cəmiyyət həyatındakı rolunun artırılmasına yüksək qiymət vermiş, jurnalistlərin peşə fəaliyyətləri üçün geniş imkanlar yaratmışdır. ***"Bizim dövlət siyasətimizin əsas məqsədlərindən biri Azərbaycanın mütərəqqi mətbuat ənənələrinin davam etdirilməsi və müasir beynəlxalq təcrübə ilə zənginləşdirilməsi, kütləvi informasiya vasitələrinin maddi-texniki vəziyyətinin yaxşılaşdırılması, onların imkanlarından respublikada hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin formalaşdırılması və inkişafı, demokratik islahatların həyata keçirilməsində səmərəli istifadə edilməsindən ibarətdir"***, – deyən ümummilli lider ölkəmizdə söz azadlığının təmin olunmasını, kütləvi informasiya vasitələrinin cəmiyyət həyatındakı rolunun artırılmasını daim diqqətdə saxlamış, jurnalistlərin peşə fəaliyyətləri üçün geniş imkanlar yaratmışdır. Dahi şəxsiyyətin kütləvi informasiya vasitələrinin inkişafına göstərdiyi böyük diqqət və qayğı nəticəsində qısa zamanda bu sahədə fəaliyyəti tənzimləyən zəngin qanunvericilik bazası yaradılmış, mətbuat orqanlarının maddi-texniki təminatı və iqtisadi müstəqilliyi gücləndirilmiş, mətbuat-dövlət münasibətlərində mütərəqqi ənənələrin əsası qoyulmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsində məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığının yer alması, həmçinin ulu öndərin 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı", 1998-ci il avqustun 6-da imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı ölkəmizdə söz, mətbuat, fikir azadlıqlarının təminatına əlverişli şərait yaratmış, Müstəqil Dövlətlər Birliyi məkanında ilk dəfə olaraq Azərbaycanda senzura ləğv olunmuşdur. 2000-ci ildə Mətbuat və İnformasiya Nazirliyinin ləğv olunması isə dövlətin mətbuat üzərində nəzarətinə tamamilə son qoymuşdur. 1999-cu il dekabrın 7-də "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun qəbulu bu sahədə hüquqi bazanın zənginləşdirilməsi işinə əhəmiyyətli töhfə olmuşdur.

Bu gün ulu öndərin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən kütləvi informasiya vasitələrinin inkişafı sahəsində ardıcıl tədbirlər görülür. Dövlət başçısının "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyasının təsdiq edilməsi haqqında" 2008-ci il 31 iyul tarixli Sərəncamı və "Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında" 2009-cu il 3 aprel tarixli Fərmanı ölkəmizdə kütləvi informasiya vasitələrinin inkişafı sahəsində yeni imkanlar açmışdır. Azərbaycan milli mətbuatının yaranmasının yubileylərinin dövlət səviyyəsində qeyd edilməsi, yubiley münasibətilə Azərbaycan mətbuat işçilərinin təltif edilməsi, habelə kütləvi informasiya vasitələrinə maliyyə yardımının göstərilməsi jurnalistlərin əməyinə verilən yüksək qiymətin göstəricisidir.

Söz və mətbuat azadlığını yüksək qiymətləndirən ölkə Prezidenti cənab İlham Əliyev demişdir: ***"Söz və mətbuat azadlığı demokratik cəmiyyətin prioritet dəyərlərindən biridir. Zəngin tarixi və mütərəqqi ənənələri olan Azərbaycan mətbuatı ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda demokratiya və siyasi plüralizmin mühüm vasitəsi kimi çıxış edir. Cəmiyyətdə aşkarlığın və şəffaflığın təmin edilməsində, aktual ictimai problemlərin ümumxalq müzakirəsinə çıxarılmasında, sosial ədalət prinsiplərinin müdafiəsində Azərbaycan mətbuatının rolu xüsusi qeyd olunmalıdır".***

Mətbuatın hərtərəfli dövlət qayğısı ilə əhatə olunması prinsipi muxtar respublikamızda da uğurla həyata keçirilir. Son 20 ildə bütün sahələrdə əldə olunan inkişaf və yüksəliş muxtar respublikanın kütləvi informasiya vasitələrini də əhatə etmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun mətbuata hərtərəfli qayğısı bu sahədə keyfiyyət dəyişikliklərinin əldə edilməsinə zəmin yaratmışdır. Ali Məclis Sədrinin 2000-ci il martın 29-da imzaladığı "Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" Sərəncamı kütləvi informasiya vasitələrinin gələcək inkişafı istiqamətində yeni üfüqlər açmışdır. Bu gün muxtar respublikanın hər bir şəhər və rayonunun özünün qəzeti vardır. 2010-cu ildə "Şərq qapısı" qəzeti redaksiyası və Əcəmi Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni bina istifadəyə verilmiş, müasir iş şəraiti yaradılmışdır.

Muxtar respublikada digər kütləvi informasiya vasitələrinin inkişafı da diqqət mərkəzində saxlanılır. 2011-ci ildə Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin binası yenidən qurularaq istifadəyə verilmiş, komitədə yeni nəsil rəqəmsal teleradio avadanlıqları quraşdırılmış, güclü maddi-texniki baza yaradılmışdır. "Kanal 35" televiziyası, "Naxçıvanın səsi" radiosu da lazımi şəraitlə təmin edilmişdir. 2005-ci ildə Naxçıvan Mətbuat Şurasının, 2007-ci ildə isə Televiziya və Radio Şurasının yaradılması və fəaliyyəti də muxtar respublikamızda bu sahədə həyata keçirilən tədbirlərdəndir. Artıq muxtar respublika sakinlərinə yüksək səviyyədə IP və rəqəmsal televiziya yayımı, genişzolaqlı internet və digər elektron xidmətlər göstərilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 2011-ci il 15 iyul tarixli Fərmanına uyğun olaraq, dövlət idarəçiliyində informasiya və kommunikasiya texnologiyalarından istifadə olunması prioritet istiqamətə çevrilmiş, muxtar respublikada informasiya cəmiyyətinə keçid və elektron hökumətin formalaşdırılması sahəsində mühüm tədbirlər görülmüşdür. Bu gün informasiya sistemlərinin inkişafına, informasiya təhlükəsizliyinin təmin edilməsinə, elektron hökumət, elektron imza və elektron sənəd dövriyyəsinin tətbiqinə, elektron poçt-maliyyə xidmətlərinin, ayrı-ayrı sahələr üzrə informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin genişləndirilməsinə, internetdən istifadə səviyyəsinin artırılmasına xüsusi diqqət yetirilir.

Söz azadlığı məlumat azadlığı ilə üzvi surətdə bağlıdır. Məlumat azadlığının tərkib hissəsi isə informasiya əldə etmək hüququdur. 2011-ci il dekabrın 29-da "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklər edilərək "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn vəzifələrin Naxçıvan Muxtar Respublikasında yerinə yetirilməsinə nəzarət Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə (Ombudsman) həvalə edilmişdir. Bu isə məlumat azadlığının və informasiya əldə etmək hüququnun daha effektiv müdafiə və təmin edilməsinə imkan verir.

*Muxtar respublikada azad mətbuatın fəaliyyətinin getdikcə gücləndirilməsi, cəmiyyətin hər bir üzvünün öz fikrini sərbəst şəkildə ifadə etməsi sahəsində həyata keçirilən tədbirlər bundan sonra da davam etdiriləcəkdir.*

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının mətbuat xidməti***

# Naxçıvan şəhərində


Şahmat məktəbi – 1999


Şahmat Mərkəzi – 2015

## Boks üzrə muxtar respublika turniri

***Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr edilmiş boks üzrə Naxçıvan Muxtar Respublika turnirinə dünən yekun vurulub.***



Mayın 1-dən başlanan, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Boks Federasiyası tərəfindən birgə təşkil edilən və Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən turnirdə muxtar respublikanın şəhər və rayonlarından, ümumilikdə, 150-dən çox dəri əlcək sahibi mübarizə aparıb.

Turnirin bağlanış mərasimində əvvəlcə səhnə Naxçıvan Dövlət Filarmoniyasının əməkdaşlarına verilib. Səsləndirilən musiqi nömrələri alqışlarla qarşılanıb.

Bədii hissədən sonra Azərbaycan Respublikası Gənclər və İdman nazirinin müavini İsmayıl İsmayılov çıxış edib. O qeyd edib ki, son illər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun idmana göstərdiyi diqqət və qayğı öz bəhrələrini verməkdədir. Bunun nəticəsidir ki, muxtar respublika bir çox beynəlxalq turnirlərə uğurla ev sahibliyi edir. Bu gün ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş boks üzrə turnirdə idmançıların nümayiş etdirdiyi yüksək peşəkarlıq bizdə xoş təəssüratlar yaratdı. Keçirilən bu turnir bir daha onu göstərir ki, Azərbaycanın bütün regionlarında olduğu kimi, muxtar respublikada da idman yüksək səviyyədə inkişaf edir.



Sonra çıxış edən Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Azad Cabbarov bildirib ki, muxtar respublikada fəaliyyət göstərən 12 idman federasiyası nazirliklə birgə ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr edilmiş turnirlər keçirəcəkdir və ilk belə turnir boks üzrə muxtar respublika turniridir. Naxçıvanda təşkil olunan beynəlxalq turnirlər onun göstəricisidir ki, bu gün təkcə paytaxt Bakıda yox, Azərbaycanın bütün şəhər və rayonlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında da idman sahəsinə diqqət yüksək səviyyədədir. Bu il ilk dəfə Bakıda təşkil olunan Avropa Oyunlarının məşəlinin muxtar respublikaya gətirilməsi münasibətilə ötən günlərdə Naxçıvanda Alov festivalı təşkil edildi və bu hadisə Naxçıvan idmançıları üçün əlavə stimul oldu. Muxtar respublikada idmana, idmançılara göstərilən qayğının nəticəsidir ki, bu gün beynəlxalq arenalarda idmançılarımız ölkəmizi layiqincə təmsil edir, Azərbaycan bayrağını qürurla dalğalandırırlar. İnanırıq ki, bu gün keçirilən boks turnirində uğur qazanan boksçularımız gələcəkdə daha böyük nailiyyətlər əldə edəcəklər.

İki gün davam edən və 13 çəki dərəcəsində keçirilən turnirdə İlkin Qurbanov (34 kq), Ülvi Süleymanov (38 kq), Muxtar Fərzəliyev (42 kq), Ayxan Cavadlı (46 kq), Əhməd Cəfərov (48 kq), Kərim Babayev (52 kq), Nihad Quliyev (56 kq), Arif Babayev (60 kq), Məhəmmədəli Bağırov (64 kq), Elnur Mustafayev (69 kq), Qənbər Abdullayev (75 kq), Elmar Cəbrayılov (81 kq) və Ayxan İsayev (91 kq) bütün rəqiblərinə qalib gələrək birinci yerə layiq görülüblər.

Sonda qaliblər diplom və hədiyyələrlə mükafatlandırılıblar.

**Ceyhun MƏMMƏDOV**

## Beynəlxalq şahmat festivalının ilk turu başa çatıb

*"Naxçıvan -2015" Beynəlxalq Şahmat Festivalının ilk turu maraqlı qarşılaşmalarla yadda qalıb.*



Bu turda "A" qrupunda keçmiş dünya çempionu, yarışın ən yüksək reytinqli şahmatçısı, özbəkistanlı Rustam Kasımcanov Azərbaycan şahmatçısı, beynəlxalq usta Ayaz Məmmədovla qarşılaşıb və "sülh"ə razılaşıb. Qadınlar arasında dünya çempionu, Çin təmsilçisi Hou Yifanın ilk qarşılaşmada rəqibi azərbaycanlı beynəlxalq usta Nicat Ağayev olub. Daha üstün oyun sərgiləyən çinli zəka sahibi ilk turu qələbə ilə başa vurub. Azərbaycanlı qrossmeyster Rauf Məmmədov isə türkiyəli şahmatçı, FİDE ustası Ege Köksal ilə görüşüb və ilk qələbəsini qazanıb.

Naxçıvanın zəka sahiblərindən FİDE ustası Pərviz Qasımov ilk görüşündə beynəlxalq qrossmeyster Zeynəb Məmmədyarova ilə üz-üzə gəlib və ağ qara taxtadan qələbə ilə ayrılıb. Digər həmyerlimiz FİDE ustası Ürfan Sevdimalıyev FİDE ustası Nail Bəşirli ilə üz-üzə gəlib və onlar xalları yarı bölüblər.

Bu turda türkiyəli FİDE ustası Arat Ufuk Sezen ağ qara taxtada fransız Bakrot Etienlə mübarizə aparıb. Türkiyə təmsilçisi rəqibinin müqavimətini qıra bilməyib və xalları yarı bölüblər. Azərbaycanlı qrossmeyster Eltac Səfərlinin ilk rəqibi isə digər həmyerlimiz Orxan Abdulov olub. Bu qarşılaşma Eltacın xeyrinə başa çatıb. Ukrayna şahmatçısı Vladimir Baklan İran şahmatçısı, FİDE ustası Aryan Qulamini, ukraynalı qrossmeyster Vladimir Onişşuk Azərbaycan şahmatçısı, beynəlxalq usta Bəhruz Rzayevi məğlub edib.

Hindistan şahmatçısı Gupta Abhijeet bu turda azərbaycanlı şahmatçı Vüqar Əsədli ilə, rusiyalı şahmatçı, qrossmeyster Aleksandr Xalifman FİDE ustası, gürcüstanlı Georgi Sibaşvili ilə, Naxçıvanda keçirilən beynəlxalq şahmat festivallarının ənənəvi iştirakçılarından olan holland şahmatçısı Sergey Tivyakov azərbaycanlı beynəlxalq usta Misratdin İsgəndərovla xalları yarı bölüblər.

## Mini-futbol üzrə Naxçıvan şəhər birinciliyi

Naxçıvan Şəhər Uşaq-gənclər idman məktəbinin mini-futbol meydançasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş 2002-2003-cü illər təvəllüdlü yeniyetmələr arasında mini-futbol üzrə Naxçıvan şəhər birinciliyi keçirilib. Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin və Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə keçirilən yarışda 7 komandada 70 futbolçu iştirak edib.

Olimpiya sistemi üzrə keçirilən yarışın yekununa əsasən, "Atabəylər" komandası birinci yerə layiq görülüb. Onlar finalda "Araz" komandasından üstün olublar. "Xəzər" və "Gənc Heydərçilər" komandaları isə üçüncülüklə kifayətləniblər.

Qalib komandalara və fərqlənən idmançılara Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları, fəxri fərmanları və hədiyyələr təqdim edilib.

## Şənbə iməciliklərində 3600 ağac və bəzək kolları əkilib

Son 20 ildə muxtar respublikamızda yaşıllıq sahələrinin həcminin bir neçə dəfə artması, yurdumuzun yaşıllıqlar məskəninə çevrilməsi muxtar respublikanın hər bir guşəsində keçirilən və naxçıvanlıların vətəndaşlıq borcuna çevrilən iməciliklər nəticəsində mümkün olmuşdur. Bu sahədə görülən işlərin kəmiyyət və keyfiyyəti getdikcə yüksəlir. Son illər iməciliklər yolu ilə xeyli meyvə bağları, yaşıllıq zolaqları salınmışdır.

Cari ildə də bu tədbirlər mütəşəkkilliklə davam etdirilməkdədir.

Dünən muxtar respublikanın şəhər və rayonlarında keçirilən iməciliklərdə, ümumilikdə, 24 min 483 nəfər iştirak etmişdir.

Həmin gün Naxçıvan şəhərinin sakinləri Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksinin ətrafındakı yaşıllıqlara aqrotexniki qulluq göstərmişlər.

Şərurlular Naxçıvan-Sədərək magistral yolunun Püsyan kəndi hissəsindəki 18 hektarlıq ərazidə, Püsyan kənd tam orta məktəbinin və müəssisələrin ərazilərində, ordubadlılar Naxçıvan-Ordubad magistral yolunun Aza, Dəstə, Aşağı Əylis kəndləri hissəsində və Ordubad şəhərinin girişində, culfalılar rayonun müəssisə və təşkilatlarının ərazilərində, Kəngərli sakinləri Naxçıvan-Sədərək magistral yolunun kənarlarında, Çalxanqala və Qarabağlar kəndlərində, sədərəklilər Heydərabad qəsəbəsindəki 3 hektarlıq meyvə bağında, Sədərək kənd 1 nömrəli tam orta məktəbin, rayonun müəssisə və təşkilatlarının ərazilərində keçirilən iməciliklərdə iştirak etmişlər.

Keçirilən iməciliklərdə ağac və bəzək kolları da əkilmişdir. Babəklilər Naxçıvan-Şahbuz magistral yolunun sağ və sol hissələrində 1800 ədəd həmişəyaşıl, şahbuzlular Naxçıvan-Batabat magistral yolunun kənarlarında 300 ədəd meşə, 500 ədəd həmişəyaşıl və 1000 ədəd bəzək ağacları əkmişlər.

Həmin gün muxtar respublikanın bütün bölgələrində ahıl vətəndaşların həyətlərində təmizlik və abadlıq işləri aparılmışdır.

## Məhdud fiziki imkanlı şəxslərə növbəti səyyar xidmət göstərilib

***Muxtar respublikamızda məhdud fiziki imkanlı şəxslərin tibbi və sosial reabilitasiyası daim diqqət mərkəzində saxlanılır və bu istiqamətdə tədbirlər həyata keçirilir.***

Bu tədbirlərin davamı kimi Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 29 aprel-1 may tarixlərində bu kateqoriyadan olan şəxslərə növbəti səyyar xidmət göstərilib. Belə ki, tibbi-texniki heyət məhdud fiziki imkanlı 80 şəxsin, o cümlədən 11 ahılın və sağlamlıq imkanları məhdud 4 uşağın evlərinə gedərək onların ehtiyacları ilə maraqlanıb, 14 nəfərdən protez və ortez sifarişləri qəbul edilib, 3 nəfərin protezləri təmir edilib, 14 nəfər protez-ortopediya məmulatları ilə, eyni zamanda 49 nəfər texniki-bərpa vasitələrilə, o cümlədən 12 nəfər əlil arabası, 6 nəfər eşitmə aparatı, 31 nəfər isə müxtəlif növ əsalarla təmin olunub.

Cari ildə, ümumilikdə, 156 məhdud fiziki imkanlı şəxsə səyyar xidmət göstərilib.

**Xəbərlər şöbəsi**


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 355